# Xalqa, dövlətə və liderə sədaqət nümunəsi

## Akademik Ramiz Mehdiyevin "Heydər Əliyev" ordeninə layiq görülməsi ölkəmizin inkişafına önəmli töhfələr vermiş insanlarla bağlı böyük qədirbilənlik nümunəsidir

*... O vaxt Heydər Əliyevin yetişdirdiyi, böyük vəzifələr verdiyi bir çox kadrlar ona sadiq çıxmadılar və o, 1993-cü ildə hakimiyyətə qayıdandan sonra həmin kadrlara etibar etmədi. Bir halda ki, sizi dərhal vəzifəyə təyin edib, onu göstərir ki, o, həm sizə inanırdı, eyni zamanda, xalqımız üçün həmin ağır illərdə siz ulu öndərə öz sədaqətinizi saxlamısınız və onun rəhbərliyi altında işlədiyiniz dövr ərzində bunu sübut etmisiniz.*

**Prezident İlham Əliyevin Ramiz Mehdiyevə "Heydər Əliyev" ordenini təqdim edərkən söylədiyi fikirlərdən**



***❐ Ötən əsrin ən görkəmli siyasətçilərindən olan Uilyam Çörçillin dövlət idarəetməsi, lider məharəti və siyasətçi keyfiyyətləri barədə dediyi fikirlər indi də politoloq və ekspertlərin, xüsusən, mətbuat təmsilçilərinin tez-tez yada saldığı aforizmlərə çevrilib. Məsələn, o demişdir ki, insanın ən mükəmməl keyfiyyəti məsuliyyətli olmasıdırsa, siyasətçinin də ən ali keyfiyyəti sədaqətliliyidir. Göründüyü kimi, böyük siyasətçi bu ifadəsində öz həmkarlarının kimə sədaqət nümayiş etdirməli olduğunu demir. Amma o deməsə də, ekspertlər yaxşı bilirlər ki, söhbət xalqa, dövlətə, dövlətçiliyə, təmsil olunduğun siyasi istiqamətə, həmin istiqamətin liderinə və ən başlıcası, insanlığa olan sədaqətdən gedir.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 23-də akademik Ramiz Mehdiyevi qəbul edərək ona "Heydər Əliyev" ordenini təqdim edilməsi mərasimində dediyi fikirlər sübut etdi ki, müasir Azərbaycanda məhz U.Çörçillin görmək istədiyi keyfiyyətləri özündə yaşadan siyasətçilər vardır. Prezident həm sovet dönəmində, həm də müstəqillik illərində ölkəmizin inkişafına böyük töhfələr vermis Ramiz Mehdiyevin keçdiyi həyat yolunu xarakterizə edərkən akademikin ictimai-siyasi fəaliyyət tarixçəsini elə dolğun şəkildə yada saldı ki, qeyd edilən məqamlar istər-istəməz bir məktəb təəssüratı yaratdı. Bu da təsadüfi deyildi. Çünki Ramiz Mehdiyev hələ gənc yaşlarından məhz Heydər Əliyev siyasətinin icraçılarından olmuş, onun idarəetmə təcrübəsini ən incə detallarına qədər mənimsəmişdir.

Prezident xatırlatdı ki, Heydər Əliyevin gənc Ramiz Mehdiyevi önə çəkməsi, onu paytaxtın əsas rayonlarından birinin rəhbəri təyin etməsi, sonra Mərkəzi Komitəyə dəvət edərək təşkilat şöbəsinin rəhbəri vəzifəsinə qoyması, ulu öndərin Moskvada işlədiyi dövrdə məhz onun tövsiyəsi ilə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ideologiya üzrə katibi vəzifəsinə təyin olunması heç də təsadüfi deyildi. Çünki Heydər Əliyev hansı kadrın hansı vəzifəni icra edə biləcəyini çox yaxşı müəyyən edirdi.

Prezident xatırlatdı : "Heydər Əliyev əsassız olaraq bütün vəzifələrdən çıxarılandan sonra sizi də vəzifədən azad etmişdilər və yalnız Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıdandan sonra o, yenə də sizi dəvət etdi. Bu, böyük bir inamın təzahürü idi. Çünki siz də yaxşı bilirsiniz, mən də yaxşı bilirəm ki, o vaxt Heydər Əliyevin yetişdirdiyi, böyük vəzifələr verdiyi bir çox kadrlar ona sadiq çıxmadılar və o, 1993-cü ildə hakimiyyətə qayıdandan sonra həmin kadrlara etibar etmədi. Bir halda ki, sizi dərhal vəzifəyə təyin edib, onu göstərir ki, o, həm sizə inanırdı, eyni zamanda, xalqımız üçün həmin ağır illərdə siz ulu öndərə öz sədaqətinizi saxlamısınız və onun rəhbərliyi altında işlədiyiniz dövr ərzində bunu sübut etmisiniz."

Doğrudan da, Ramiz Mehdiyevin Heydər Əliyev tərəfindən Prezident Administrasiyasının rəhbəri vəzifəsinə təyin olunması onun çox önəmli və məsul işdə böyük nailiyyətlər əldə etməsi ilə nəticələndi. 2003-cü ilin payızından etibarən Ramiz Mehdiyevlə birlikdə işlədiyini xatırladan Prezident bildirdi ki, ölkəmizin uğurlu, hərtərəfli inkişafında onun çox böyük və danılmaz rolu var: "Mənim sizə böyük hörmətim var. Siz həmişə dövlətçiliyi hər şeydən üstün tutmusunuz və bu gün Azərbaycan dövləti inkişaf edir, qarşıda duran bütün vəzifələr icra olunur. Bu vəzifələrin icrasında sizin böyük rolunuz vardır".

Eyni zamanda, Prezident akademikin bir ifadəsini yada saldı: " Siz də həmişə deyirdiniz ki, biz gərək gəncləri irəli çəkək, gənclərə yol verək, onlar da yetişsinlər ki, bizim inkişafımız uzunmüddətli olsun. Gənclər elə yetişməlidir ki, gələcəkdə onlar ölkəmizi layiqincə idarə edə bilsinlər... Mən bilirəm ki, siz elmi işlərlə də fəal məşğulsunuz, bir çox böyük elmi əsərlərin müəllifisiniz. Bilirəm, sizin də istəyiniz ondan ibarətdir ki, bundan sonra elmi işlərlə məşğul olasınız. Sizin çox böyük potensialınız var və müəllifi olduğunuz kitablar çox böyük diqqətə və qiymətə layiqdir".

*Heydər Əliyev Azərbaycan tarixində yaşayıb-yaratmış görkəmli ictimai və siyasi xadimlər sırasında ümummilli lider səviyyəsinə yüksəlmiş yeganə şəxsiyyətdir.*

**Ramiz MEHDİYEV,
AMEA-nın prezidenti**

Dövlətimizin ən yüksək mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edildiyinə görə Prezidentə təşəkkür edən akademik əlavə etdi ki, ulu öndərin adına təsis olunmuş bu ali ordenlə təltif olunmaq hər bir dövlət qulluqçusunun, hər bir ictimai və siyasi xadimin arzu etdiyi ali mükafatdır: "Müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu olmuş, xalqımızın qəlbində əbədi məskən salmış ulu öndərin xatirəsi saydığım bu ali mükafat mənim həyatda nail olduğum və qazandığım ən böyük mükafatdır. Buna görə Sizə, cənab Prezident, bir daha öz dərin təşəkkürümü bildirirəm".

Ramiz Mehdiyev son günlər ölkənin ictimai-siyasi həyatında baş verən prosesləri qiymətləndirərkən qeyd etdi ki, Prezident İlham Əliyev müstəqil Azərbaycanın dövlət qulluğu sisteminin yeni bir sivil ənənəsini yaratdı: "Bu gün bütün Azərbaycan cəmiyyəti uzun müddət Azərbaycan dövlətçiliyinə xidmət göstərmiş, dövlət qulluğu sistemində məsuliyyətlə və sədaqətlə çalışmış yüksək vəzifəli şəxslərin ölkə Prezidenti tərəfindən hansı hörmət və izzətlə yola salınması prosedurundan danışır. İnanıram ki, bu ənənə gələcəkdə də dövlət-cəmiyyət münasibətlərində öz xoş izlərini buraxacaq. Bu ənənə vəzifəyə təyin olunan insanlar üçün hansı xoş əhval-ruhiyyəni bəxş edirsə, vəzifəsini başa vurub təqaüdə gedən insanlar üçün də eyni xoş ovqatı aşılayacaqdır. Bu ənənəni yaratdığınız üçün, cənab Prezident, Siz böyük şəxsiyyət kimi bir daha ucaldınız".

Bəli, bu gün ölkəmizin ictimai-siyasi həyatındakı islahatlar, yeniliklər və xüsusən, uzun illər xidməti olmuş insanların böyük qədirbilənlik, hörmət-izzətlə yola salınması ənnənəsi həmin adamları da xalqın gözündə ucaltdı, bu möhtəşəm ənənənin müəllifi olan dövlət başçımızı da.

***İttifaq MİRZƏBƏYLİ,
"Xalq qəzeti"***